# ŞƏRTLƏR

Kampaniyanın adı: **Visa kartına köçürmələr**

Visa partnyor-bankların müştəriləri üçün kampaniya keçirir* (cari şərtlərin 6-cı bəndi), bunun əsasında şirkətin Azərbaycandakı partnyor-banklarının müştəriləri cari sənədlə nəzərtə tutulmuş (bundan sonra: "Şərtlər") şəkildə xaricdəki Visa kartlarına komissiyasız* (ətraflı şərtlər kampaniya şərtlərinin 4-cü punktunda) köçürmə həyata keçirə bilərlər.

Şərtlərlə razılaşaraq bəyan edirsiniz ki, Visa kartları ilə köçürmələr həyata keçirməzdən əvvəl Şərtlərlə tanış olmusunuz və aşağıdakı bütün şərtləri qəbul edirsiniz.

Biz cari Şərtləri vaxtaşırı yenidən nəzərdən keçirmək hüququnu özümüzdə saxlayırıq. Xahiş edirik, dəyişikliklərlə tanış omaq üçün mütəmadi olaraq cari Şərtləri gözdən keçirəsiniz. Biz gözlənilən dəyişikliklər barədə öncədən xəbərdarlıq etməklə bağlı heç bir məsuliyyət daşımırıq və siz yalnız şəxsi risk əsasında Kampaniyada iştirak edirsiniz.

**1. <u>Kampaniyanın təsviri</u>**

Əgər siz 6-cı bənddə nəzərdə tutulmuş partnyor-banklardan birinin buraxdığı Visa kart sahibisinizsə, xaricdə Visa kartına komissiyasız* (ətraflı şərtlər kampaniya şərtlərinin 4-cü punktunda) köçürmə həyata keçirmək hüququna maliksiniz.

Kampaniyada istisnasız bütün növ (tip) Visa kartlarının sahibləri iştirak edə bilərlər (köçürməni alanın emitent-bankının qoyduğu məhdudiyyətlərdən başqa).

**2. <u>Keşbekin əldə edilməsi</u>**

Geri qaytarılmış komissiyanın maksimal miqdarı 5 manat təşkil edir.

Komissiya köçürmə həyata keçirilən müvafiq ay bitdikdən sonra 21 bank günü ərzində partnyor-bank tərəfindən sizə ödəniləcək.

**3. <u>Köçürmənin həyata keçirilməsi</u>**

Kampaniya çərçivəsində köçürmə həyata keçirmək üçün, Siz kartın 16-rəqəmli nömrəsini, həmçinin, alanın adını, soyadını daxil etməlisiniz. Visa kartları vasitəsilə köçürmələr, həmçinin, bankınızın Visa kartlarına sürətli köçürmələri dəstəkləyib-dəstəkləmədiyi barədə ətraflı məlumat almaq üçün bankınıza müraciət etməlisiniz.

Siz bankınızda keçərli olan aşağıdakı üsullarla köçürmə həyata keçirə bilərsiniz:

- bankınızın mobil tətbiqi vasitəsilə köçürmə
- bankınızın internet-bankinq xidməti vasitəsilə köçürmə
- bankınızın filiallarında köçürmə
- bank tərəfindən sertifikatlaşdırılmış digər üsullar.

Visa kartları vasitəsilə köçürmə zamanı Sizin bankınız öz qərarına əsasən komissiya təyin etmək hüququna malikdir.

Bundan başqa, Azərbaycan qanunvericiliyinə, həmçinin, bankın daxili tənzimləmələrinə əsasən, Sizin bankınız köçürmələr üçün məhdudiyyətlər, limitlər və ya digər parametrlər təyin edə bilər. Sizin bankınız tərəfindən təyin edilən komissiya məbləğləri, məhdudiyyətlər və digər təfərrüatlar barədə tam məlumat almaq üçün öz bankınıza müraciət etməyinizi xahiş edirik.

**4. İstisnalar**

Maksimum keşbek məbləği – 5 manat. Komissiya köçürmə həyata keçirilən müvafiq ay bitdikdən sonra 21 bank günü ərzində partnyor-bank tərəfindən sizə ödəniləcək.

**5. Kampaniya müddəti**

Kampaniya 1 avqust-30 sentyabr (2 ay) tarixləri ərzində həyata keçiriləcək.

Visa Kampaniya müddətini öz qərarına əsasən uzada və ya qısalda bilər. Müvafiq dəyişikliklər visa.com.az saytında və cari Şərtlərdə əks olunacaq.

**6. Partnyor-banklar**

- Bank of Baku
- Bank Respublika
- VTB Bank
- Express Bank
- International Bank of Azerbaijan
- Kapital Bank
- Rabita Bank
- Ziraat Bank
- Xalq Bank

Yalnız bankınız partnyor-banklardan biri olduğu halda kampaniyada iştirak edə bilərsiniz. Digər lisenziyalı Azərbaycan bankları kampaniyada iştirak etmir. Partnyor-bankarın aktual siyahısı ilə tanış olmaq üçün mütəmadi olaraq cari Şərtləri gözdən keçirməyinizi xahiş edirik.